# Saatlı Rayon Statistika İdarəsi tərəfindən “Ümumdünya statistika günü” ilə əlaqədar tədbir keçirilmişdir.

20 oktyabr 2025-ci il tarixində “Ümumdünya Statistika Günü” ilə əlaqədar Saatlı Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ruhid Əzizov, Yeni Azərbaycan Partiyasının Saatlı rayon təşkilatının sədri Elşən Əzizov və Saatlı Rayon Statistika İdarəsinin Əməkdaşları ilə birlikdə Ulu Öndər Heydər Əliyevin Saatlı şəhərində ucaldılmış abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilmişdir.

Tədbir Saatlı Rayon Statistika İdarəsində Azərbaycanın Ümumilli lideri Heydər Əliyevin və Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan Saatlı Rayon Statistika İdarəsinin rəisi Rövşən İsayev tədbir iştirakçılarını salamlamış və statistika müasir dövrdə dövlət siyasətinin formalaşdırılmasında, sosial-iqtisadi inkişafın qiymətləndirilməsində, qərarvermə proseslərinin əsaslandırılmasında və cəmiyyətin obyektiv məlumatlarla təmin edilməsində “Dəqiq məlumat-dayanıqlı inkişafın əsası” dır mövzusunda çıxış etmişdir.

Bundan sonra tədbirə dəvət olunmuş Yeni Azərbaycan Partiyasının Saatlı təşkilatının sədri Elşən Əzizov, Ağsaqqallar Şurasının Saatlı rayon Təşkilatının sədri Sədafər Hüseynov, Saatlı Rayon Statistika İdarəsinin sabiq rəisi Seyfəddin Soltanov və digər dəvət olunmuş qonaqlar çıxış edərək “Ümumdünya Statistika Günü” və Azərbaycanda Statistikanın 105 illiyi münasibəti ilə təbriklərini çatdırdılar və ölkəmizdə rəsmi statistikanın inkişafı mövzusunda çıxış etdilər.















